BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# VƏTƏNPƏRVƏRLİK LİRİKASI
## (Eldar Baxışın yaradıcılığı əsasında)

**S.Ş.NOVRUZOVA**
**Bakı Dövlət Universiteti**

Ötən əsrin yetmiş-səksəninci illər poeziyasında sosial-siyasi problemlər aparıcı mövqe tutmaqda idi. Bu aspekt özünü bir neçə istiqamətdə göstərirdi. Hər şeydən əvvəl, şeirdə ictimai-siyasi ideallarin təcəssümünə meylin artması vətənpərvərlik lirikasının güclənməsinə təkan vermişdir. Tənqidçi Vaqif Yusifli «Yollar hayana aparır» adlı məqalələr toplusunda bu məsələni şərh etməyə çalışaraq yazır: «Belə bir ifadə var: «Vətəndaşlıq poeziyası». Və bu ifadəni əksər hallarda şairlərin şeirrindəki ictimai pafosa görə müəyyənləşdirirlər. Əgər şair Vətənin başının üstünü alan təhlükədən, onun faciələrindən, ekoloji nizamının pozulmasından, min bir sosial bəladan yazırsa, özü də yazdığı şeirlərin bədii dəyərindən asılı olmayaraq yenə həmin ifadə köməyə gəlir. Beləliklə, bir qrup tənqidçilərin fikrincə, poeziya istər-istəməz «vətəndaşlıq» və «qeyri-vətəndaşlıq» kimi iki qütbə parçalanır».(9, 46)

Tənqidçi Vaqif Yusifli fikir və qənaətlərini davam etdirərək yazır: «Vətəndaşlıq poeziyasını yalnız müəyyən mövzularla məhdudlaşdırmaq təbii ki, düzgün yol deyil. Gəlin, bir anlığa bizdən əvvəlki onilliklərdə dövrün, zamanın, həmin illərin mühüm ictimai-siyasi problemlərinə poeziyanın münasibətini izləyək. Doğrudanmı, Vətənin ağrı-acılarından, Vətən övladının mənəvi məhrumiyyətlərindən, sosial bəlalarından yazılan yüzlərlə şeir bu gün də öz bədii-estetik təravətini itirməyib? Doğrudanmı, həmin şeirlər ağır, çətin, mürəkkəb və qorxulu günlər yaşadığımız müasir dövrdə də öz aktuallığını saxlayıb? O illərdə yazılan hansı şeir «vətəndaşlıq poeziyası» timsalında bu gün azadlıq mübarizlərimizin, şəhid olmuş və şəhid olmamış əsgərlərimizin, ümumiyyətlə, bizim hər birimizin ürəyindən xəbər versin? Varmı belə şeir? Əlbəttə var....» (9, 46-47).

Vətənpərvərlik poeziyası, yaxud poeziyada vətənpərvərlik motivləri ilə bağlı danışarkən bir məqama da diqqət yetirmək lazımdır ki, bəzi tədqiqatlarda bu problemin nəzəri-estetik dərki ilə bağlı fərqli mülahizələr söylənməkdədir. Ədəbiyyatşünaslıq araşdırmaların bir qismi vətənpərvərlik poeziyasının çox zaman deklorativ səciyyə daşıdığını, poeziyanı bədiilikdən məhrum edərək ritorikaya çəkdiyini cidd-cəhdlə əsaslandırmağa çalışdığı halda, digər qismi bunun tam əksini, əsl bədii sənətin məhz vətənpərvər olması zərurətini israrla müdafiə etməkdədir. Bu mənada «həqiqi bədii yaradıcılıq elə öz-özlüyündə yüksək vətəndaşlıq aktıdır» kimi qənaətlərin ortaya çıxması təbiidir və milli ədəbi təcrübəyə söykənməkdədir.

Dövrün poeziyasını səciyyələndirərkən onun bəhrələndiyi başlıca mənbə və qaynaqların da səciyyələndirilməsinə ehtiyac duyulmaqdadır.

Gənc ədəbiyyatşünas Gülşən Əliyevanın qeyd etdiyi kimi, yetmiş-səksəninci illərdə «Azərbaycan poeziyasında çox vaxt moderin Avropa poeziyasına, bədii fikrinə qabarıq meyl duyulsa da, bu zahiri qabıq xarakteri daşıyır. Dərinliklərdə, köklərdə təravətini itirməyən əbədi dəyər isə klassik Şərq, Azərbaycan poeziyası...olaraq qalır»(5, 159).

Yetmiş-səksəninci illərin siyasi lirikasında müşahidə olunan vətənpərvərlik motivləri Eldar Baxışın yaradıcılığı timsalında özünün dolğun, hərtərəfli təcəssümünü tapmaqdadır. Dövrün poeziyasında və adı çəkilən şairlərin yaradıcılığında ictimai-siyasi lirikaya intensiv müraciətin arxasında fəal vətəndaşlıq mövqeyinin dayandığı aşkar duyulmaqdadır. Bu mənada vətənpərvərlik motivlərinin ictimai-siyasi məzmunlu lirikada, bir çox hallarda isə beynəlxalq mövzularda yaranmış poetik örnəklərdə təcəssümünü tapması təsadüfi, ötəri hal hesab edilməməlidir. Hər şeydən öncə, ona görə ki, bütün dövlərdə «bəşəriliklə, vüsətliliklə yanaşı parlaq milli ruhun...bizim ən yaxşı əsərlərimiz üçün səciyyəvi» olması faktı mövcuddur.

«Öz dəst-xətti olan, oricinal nəfəsli, özünəməxsus ifadə tərzi, poetik fəndlərilə seçilən» Eldar Baxışın «Vətən» şeiri Azərbaycan haqqında yazılmış maraqlı, orijinal, bənzərsiz bədii keyfiyyətlərə malik olan poetik nümunələrdən biri kimi diqqəti çəkməkdədir. Şair Vətən sevgisini özünəməxsus şəkildə ifadə etməyə çalışmışdır:

Pişik istədiyindən
yeyir balasını,
Mən də səni yeyirəm istədiyimdən-
Təndirdən çıxan çörəyi yeyirəm,
Ağacın gətirən barını yeyirəm.
Pətəyindən süzülən balı yeyirəm.
Yemişəm, yeyəcəyəm...
Axırda səndən,
Bir qarış yer,
Bir ovuc torpaq istəyəcəyəm (2,16).

Gözlənilməz kombinasiyalarla müşayiət olunan məzmun və məna gözəlliyi «Vətən» şeirini yetmiş-səksəninci illər poeziyasının yaddaqalan, uğurlu örnəklərindən biri kimi dəyərləndirməyə imkan verir. Eldar Baxış yaradıcılığın bu aspektini əsas götürən filologiya elmləri doktoru, professor Vaqif Sultanlı şairin ölümü ilə bağlı qələmə aldığı və «Azadlığın üfüqləri» adlı kitabına daxil edilmiş «Yarımçıq ömrün hayqırışları» adlı məqaləsində yazır: «Eldar Bazışın dərd üzərində qurulan şeirlərində Azərbaycanın yaşadığı, üzləşdiyi problemlərin acı, ürək parçalayan mənzərələri canlanır. O bir şair kimi deyil, vətəndaş kimi bu dərdləri yaşamaqla yanaşı, xalqına qarşı edilən haqsızlıqlara dözə bilmir, qəzəb və etiraz səsini ucaldır»(8, 167).

Xatırladaq ki,ötən əsrin yetmiş-səksəninci illər Azərbaycan poeziyasında vətənpərvərlik motivləri ictimai-siyasi lirikada özünəməxsus, spesifik şəkildə müşahidə olunmaqdadır. Filologiya elmləri doktoru, professor Cəlal Abdullayevin «Lirika və zaman» adlı məqalələr toplusunda doğru qeyd etdiyi kimi: «...siyasi-ictimai lirika dünya hadisələrini, beynəlxalq məsələləri konkret, əyani obrazlar, predmetlər vasitəsilə əks etdirə bilir və bilavasitə müasir insanları düşündürən, onların monumental arzu, əməl və məsləklərinin poetik ifadəsinə nail olur»(1, 106).

Həmçinin bir məsələyə də diqqət yetirilməlidir ki, yetmiş-səksəninci illərin poeziyasında yaranan ictimai-siyasi lirikada dünyada cərəyan edən siyasi hadisələrə, proseslərə, beynəlxalq aləmi, bəşəriyyəti narahat edən problemlərə yetərincə qiymət verilmiş, mövzusu müxtəlif ölkələrin və xalqların həyatından alınmış əsərlər yazılmışdır. Həmin dövrün poeziyasında istiqlal ideyalarının tərənnümü çox zaman özgə xalqların tarixindən alınmış, yaxud da milli-azadlıq mübarizələrinə həsr olunmuş bədii nümunələrdə özünü göstərməkdədir.

Eldar Baxışın beynəlxalq mövzuda qələmə aldığı «Oxudum şeirlərinizi», «Tanış ağrı-acı», «Muin Bsisunun ölümündən sonra», «Con Harrisə məktub», «Fələstinə məktub», «Qəribə adam» və bir çox başqa şeirləri ədəbi nümunələri içərisində xüsusi yer tutmaqdadır. Bir qismi səyahət fonunda, digər qismi isə beynəlxalq aləmdə cərəyan edən ictimai-siyasi hadisələrin təsiri ilə qələmə alınan bu şeirlər Azərbaycan poeziyasına yeni mövzu və çalar gətirmiş, həmçinin məhz bu tipli əsərlərlə azadlıq və istiqlal problemi bədii ifadəsini tapmışdır.

Eldar Baxışın «Fələstin şeirləri» silsiləsinə daxil edilən «Oxudum şeirlərinizi», «Tanış ağrı-acı», «Fələstinə məktub», böyük türk şairi Nazim Hikmətə həsr etdiyi «Qəribə adam» şeirləri, yuxarıda qeyd olunduğu kimi, ictimai-siyasi mözuda qələmə alınmış poetik örnəklərdir. Bu kimi şeirlərində şair bəşəri məsələlərə toxunmuş, cəmiyyət və şəxsiyyət azadlığı problemini qabartmağa çalışmışdır.

«Fələstinə məktub» şeirində müəllif bəhs olunan dövrə xas olan bədii üsul və priyomdan istifadə ilə azadlıq və hürriyyətlə bağlı arzu və ideallarını ifadə etmişdir:

Keçirsən keç-
canından keç,
qanından keç,
hər şeyindən keç,
azadlığından keçmə (2, 40-41)

Şeirin sonrakı misralarında şair fikir və qənaətlərini bir qədər də ümumiləşdirərək doğma yurdun taleyi və gələcəyi haqqında düşüncələrini bütün çılpaqlığı ilə ortaya qoyur:

Azadlığın əlindən çıxsa,
yurdun əlindən çıxacaq,
qoşunun əlindən çıxacaq,
ordun əlindən çıxacaq (2, 40-41)

Filologiya elmləri doktoru Rafiq Yusifoğlu «Müasir ədəbi proses və ədəbi tənqid» adlı tədqiqatda Eldar Baxış ictimai-siyasi məzmunlu lirikasını təhlil obyektinə çevirərək belə doğru mülahizə irəli sürür ki, şair bu kimi «əsərlərində «qızım, sənə deyirəm, gəlinim, sən eşit!» prinsipinə əməl edir, əslində öz xalqının taleyindən söhbət açırdı. «Ölkə başı kəsənlər, paytaxt başı kəsənlər, bayraq başı kəsənlər»in kim olduğu həssas oxucuya o dəqiqə aydın olurdu» (10, 171). Tədqiqatçının mülahizələri ilə razılaşmamaq mümkün deyildir və əslində bu məqam dövrün poeziyası üçün səciyyəvi cəhət kimi diqqəti çəkməkdədir.

Bir məsələyə də diqqət yetirmək lazımdır ki, «bəzən siyasi lirikada şeiri yaradan fakt və bəhanə şairlərimizin «mən»ini kölgədə qoyur. Nəticədə şeir adi bir hadisə münasibəti ilə söylənən uzun, usandırıcı fikir-

lər yığınına çevrilir. Halbuki, yaxşı siyasi şeirdə şairin lirik «mən»i həmişə qabarıq şəkildə müşahidə olunmalıdır. Bu baxımdan müasir siyasi lirikada şair «mən»inin qabarıqlaşması qanunauyğun və təbii təsir bağışlayır. Bu meyl ciddi ictimai-siyasi və beynəlmiləl mövzular üçün xüsusilə səciyyəvidir». Onu da xatırlatmağa ehtiyac vardır ki, dünya ədəbi təcrübələrində lirik qəhrəmanın daxili «mən»inin qabarıq təsviri bir çox hallarda «poetik mətnin keyfiyyət göstəricisi» timsalında çıxış etməkdədir ki, bu da diqqətçəkici fakt kimi maraq doğurmaqdadır.

«İdeyalı,məqsədli qayəli şair» kimi tanınan, «ciddi, axtarışlar aparan», «xalq yaradıcılığının xeyirxah təsiri şeirlərində aydın duyulan» (Akif Hüseynov) Eldar Baxışın fikrincə, müasir dövrün sənətkarı çətin və mürəkkəb bir dövrdə yaşadığı üçün onun üzərinə böyük vəzifələr düşür. Müəllif «Səndən şair olmayacaq!» şeirində öz zəmanəsində qələm sahibinin daşıdığı missiyanın çətinliyinə və mürəkkəbliyinə diqqəti yönəldirək yazır:

Təkcə gözünlə görürsənsə,
Qulağınla eşidirsənsə təkcə,
Təkcə dilinlə danışırsansa,
Ayağınla yeriyirsənsə təkcə,
Səndən şair olmayacaq
...Azadlığın gedəndən sonra
hörmətin gedəcək,
Asan işlərin də çətin gedəcək (2, 81).

«Səndən şair olmayacaq» şeirində diqqəti çəkən gözlənilməzlik, poetik tamlığın yaratdığı harmoniya, alliterasiya məzmunun açılışına xidmət etdiyindən əsər dərhal oxucu hafizəsinə həkk olunur.

Azərbaycanın xalq yazıçısı Əkrəm Əylisli Eldar Baxışın «Deyə bilmədiyim sözlər» adlı kitabına yazdığı «Yaz havası kimi» adlı ön sözdə şairin yaradıcılığı ilə bağlı qənaətlərini belə ümumiləşdirir: «Eldar Baxışın şeiri öz başlanğıcını Azərbaycan şeirinin başlandığı yerdən götürür, mayasını ordan tutub gəlir». Şübhəsiz ki, Əkrəm Əylislinin qənaətləri ilə razılaşmamaq mümkün deyildir, çünki burada Eldar Baxış poeziyasının özünəməxsus cəhətləri dəqiq ifadəsini tapmışdır.

Qeyd edək ki, Eldar Baxış vətən mövzusunda yazdığı şeirləri o qədər hərarətli və səmimi bir dillə qələmə alınmışdır ki, onların bəzi misraları aforizm kimi səslənməkdədir. Məsələn:

Ölənlər son nəfəsdə
Gələcəyi andılar,
Hər şeyi qurban verib
Vətəni qazandılar (2, 23).

Şair ədəbiyyatşünas Qasım Qasımzadə Eldar Baxışın yaradıcılığına həsr etdiyi «Lirik şeirin imkanları» adlı məqaləsində yazır: «Eldar Baxışın vətənə həsr etdiyi şeirləri çoxdur. Başqa şeirlərinin mövzuya müvafiq onun lirikasına aid... xüsusiyyətlərdən hər hansı biri, məsələn, kövrəklik-həzinlik, yaxud çoşğunluq-heyranlıq və ya eyham-satira aparıcı mövqedə idisə, vətənpərvərliyin tərənnümündə bunlar lirikanın səfərbər üzvləri kimi bir yerə toplaşır, böyük ideyanın ifadəsində vahid emosional bədii qüvvəyə çevrilir»(6, 86).

Akademik Bəkir Nəbiyev Azərbaycan poeziyasının ötən əsrin yet-

mişinci illərində yaranmış materialları fonunda lirikada vətənpərvərlik motivlərinin mövcudluğunu sənətkar şəxsiyyəti ilə əlaqələndirərək yazır: «Bizim ən yaxşı lirik şeirlərimizdə şəxsiyyətin taleyi bütöv bir nəslin taleyi kimi əks olunduğundan, tarixi-bədii həqiqət qüvvəsi kəsb edir. Buradan da lirik şairin özünün şəxsiyyəti məsələsi meydana çıxır. Yəni şairin şəxsi duyğuları, subyektiv mülahizələri nə dərəcədə maraqlıdır, hansı səviyyədədir və bunlar ümumiyyət üçün, cəmiyyət üçün, oxucuların böyük əksəriyyəti üçün ciddi əhəmiyyət kəsb edirmi? Lirikamızda vətənpərvərlik və vətəndaşlıq duyğularının ifadəsinə həsr edilən rəngarəng əsərlər bu suala tam müsbət cavabdır»(7, 31).

«Eldarın mənsub olduğu doğma Azərbaycan poeziyasının şair-vətəndaş övladları başqaları görmədiyini görüblər, başqaları demədiyini deyiblər, eşitmədiyini eşidiblər və Eldarın dediyi kimi ona görə şair olublar. Min ildir, yüz ildir ki, onların dediyinə, onların məqamına və vətəndaşlıq, insanlıq ləyaqətinə səmimiyyət hissi zərrə qədər də azalmır»(4, 57).

## QEYDLƏR

1.Baxış Eldar. İydə çiçəyi, Bakı: Gənclik, 1977.
2. Elçin. Tənqid və ədəbiyyatımızın problemləri, Bakı: Yazıçı, 1981.
3. Ədəbi proses-83-84, Bakı: Elm, 1994.
4. Əliyeva Gülşən. Çağdaş poeziya və klassik irs, Bakı; Azərnəşr, 2000.
5. Qarayev Yaşar. Salmanov Şamil. Poeziyanın kamilliyi, Bakı: Yazıçı, 1985.
6. Nəbiyev Bəkir. Söz ürəkdən gələndə, Bakı: Yazıçı, 1984.
7. Sultanlı Vaqif. Azadlığın üfüqləri, Bakı: Şirvannəşr, 1997.
8. Yusifli Vaqif. Yollar hayana aparır, Bakı: Gənclik, 1999.
9. Yusifoğlu Rafiq. Müasir ədəbi proses və ədəbi tənqid, Bakı: Çaşıoğlu, 2004.

## ЛИРИЧЕСКИЙ ПАТРИОТИЗМ

С.Ш.НОВРУЗОВА

## РЕЗЮМЕ

Статья охватывает тему отечества в творчестве Эльдара Бахыша.

## THE LYRIC POETRY OF PATRIOTISM

S.Sh.NOVRUZOVA

## SUMMARY

The article is dedicated to the problem of the fatherland in creative works of poet Eldar Bakhish.